# Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin 2020-ci il ərzində gördüyü işlərə dair

## H E S A B A T

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarının müvafiq bəndlərinin icrası, sessiya və müşavirələrdə verilmiş tapşırıqların yerinə yetirilməsi, torpaqların elektron uçotunun aparılması və təyinatı üzrə istifadə edilməsinə dövlət nəzarətinin gücləndirilməsi, daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının qeydiyyatı zamanı operativliyin təmin edilməsi 2020-ci il ərzində diqqətdə saxlanılmışdır.

### Dövlət proqramları uğurla icra olunmuşdur

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na müvafiq olaraq əkin dövriyyəsinə daxil olan torpaqların tərkibinin öyrənilməsi və xəritələşdirilməsi davam etdirilmişdir. İl ərzində Şərur rayonunun 5, Babək rayonunun 2, Ordubad rayonunun 3, Şahbuz rayonunun 3, Kəngərli rayonunun 4 bələdiyyəsi üzrə işçi planlar hazırlanaraq torpaq analizlərinin aparılması üçün təhvil verilmişdir. Şərur rayonunun Xanlıqlar, Ələkli, Dərvişlər, Çəmənli, Kosacan və Siyaqut, Kəngərli rayonunun Böyükdüz, Xok və Xıncab bələdiyyələrinin, dövlət ehtiyat fondunda əkinəyararlı torpaq sahələrinin qida maddələri ilə təmin olunma kartoqramları yenilənərək aidiyyəti üzrə təqdim olunmuşdur.

Muxtar respublikanın bütün rayonlarında əkin atlaslarına uyğun əkinlərin aparılması, torpaqların səmərəli istifadə edilməsi, münbitliyinin qorunması və artırılması barədə maarifləndirmə işləri aparılmışdır.

"Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na müvafiq olaraq Naxçıvan şəhəri üzrə 35 nəqliyyat infrastrukturu obyektində 4000-ə yaxın daşınmaz əmlak obyektinə naturada baxış keçirilmiş və ünvan elementləri dəqiqləşdirilmişdir.

Suvarılan torpaq sahələrinin genişləndirilməsi və su təminatının yaxşılaşdırılması məqsədilə Şahbuz rayonunun Külüs, Mahmudoba və Nursu bələdiyyələri ərazisində yeni suvarma xəttinin çəkilməsi nəzərdə tutulmuş 340 ha, Şahbuz rayonunun Sələsüz, Mərəlik və Türkeş bələdiyyələrinin ərazisində qapalı suvarma şəbəkəsinin tikintisi aparılmış 270 ha, Ordubad və Culfa rayonları üzrə Gilançaydan qidalanması nəzərdə tutulan suvarma xəttinin əhatə etdiyi 1190 ha, Kəngərli rayon dövlət ehtiyat fondu və Böyükdüz bələdiyyəsinin ərazisində qapalı suvarma şəbəkəsinin tikintisi aparılmış 810 ha, Araz Su Anbarı üzərində qurulacaq yeni nasos stansiyasından qidalanması nəzərdə tutulan suvarma şəbəkəsinin əhatə

etdiyi 2091 ha ərazidə topoqrafik planaalma işləri aparılmış, hazırlanmış xəritə materialları aidiyyəti orqanlara təhvil verilmişdir.

Torpaqların şorlaşma, şorakətləşmə, müxtəlif antropogen və texnogen çirklənmələrdən mühafizəsi, ərazi vahidləri üzrə əkin dövriyyəsindən kənarda qalan əkinəyararlı torpaq sahələrinin müəyyənləşdirilməsi, xəritələşdirilməsi və yenidən əkin dövriyyəsinə qatılması ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün aid dövlət orqanlarının mütəxəssislərinin iştirakı ilə komissiya yaradılmışdır. İki ay müddətində muxtar respublika ərazisində monitorinqlər aparılmış, müxtəlif amillərin təsiri ilə deqradasiyaya məruz qalmış torpaq sahələri müəyyənləşdirilmişdir. Ordubad rayonunda 67 ha, Culfa rayonunda 958 ha, Babək rayonunda 795 ha, Kəngərli rayonunda 1291 ha, Şərur rayonunda 1573 ha, Sədərək rayonunda 3261 ha, Naxçıvan şəhərində 638 ha olmaqla, cəmi 8583 ha belə torpaq sahəsinin planları hazırlanaraq toplu şəklində nəşr olunmuşdur. Monitorinqlər zamanı ərazilərdən götürülmüş torpaq nümunələrinin laborator analizləri aparılmış, analiz nəticələri, torpaqların mülkiyyət növləri və uqodiyalar üzrə hesabat cədvəlləri tərtib edilmişdir. Hazırlanmış xəritə materialları və hesabat cədvəlləri müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti üzrə göndərilmişdir.

## Torpaqların elektron kadastr uçotu davam etdirilmişdir

"Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 aprel tarixli Fərmanı ilə müəyyənləşdirilmiş vəzifələrin icrası davam etdirilmiş, torpaqların elektron kadastr uçotu informasiya sistemi sınaq rejimində istismar olunmuşdur. Qarşıya çıxan nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müzakirələr aparılmış, mövcud funksionallıqların təkmilləşdirməsi üçün təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Sistemə torpaqlardan istifadəyə dövlət nəzarətinin həyata keçirilməsi üçün "Nəzarət və monitorinq" modulu, daşınmaz əmlakın texniki pasportunun hazırlanaraq çap olunması, dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələri üzərində kadastr əməliyyatlarının aparılması üçün yeni funksionallıqlar əlavə olunmuşdur. Xüsusi proqram təminatı vasitəsilə sistemə daxil ediləcək məlumatların miqrasiyası prosesi davam etdirilmiş, Şərur, Sədərək, Kəngərli və Şahbuz rayonlarının bütün bələdiyyələri üzrə reyestr məlumatları yeni xəritələrin üzərinə köçürülmüşdür. Aşkar olunan uyğunsuzluqlar naturada aparılmış dəqiqləşmələr nəticəsində aradan qaldırılmışdır.

Xidmətin yerli qurumlarının əməkdaşlarına fərdi qaydada sistemin iş prinsipi haqqında məlumat verilmiş və gündəlik iş prosesinin sistem vasitəsilə həyata keçirilməsi təmin olunmuşdur.

## Daşınmaz əmlak obyektlərinin plana alınması başa çatdırılmışdır

Muxtar respublikanın bütün yaşayış məntəqələri üzrə çöl geodeziya ölçmə işləri aparılmaqla torpaq sahələrinin konturlarının dəqiqləşdirilməsi, topoqrafik elementlərin, mühəndis-kommunikasiya xətləri və qurğularının, xüsusi qorunan ərazilərin, hidroqrafiya elementlərinin sərhədlərinin dəqiqləşdirilməsi başa çatdırılmış, il ərzində 7157 daşınmaz əmlak obyekti plana alınmışdır. Planaalma işləri aparılmış ərazilərdə fiziki və hüquqi şəxslərin mülkiyyətindəki və qanuni istifadəsindəki fərdi yaşayış evlərinin, həyətyanı sahələrin və torpaq islahatı zamanı verilmiş pay torpaqlarının hüquqi və texniki sənədlərindəki məkan göstəriciləri ilə torpaqların faktiki istifadə vəziyyətinin məkan göstəriciləri arasındakı mövcud uyğunsuzluqlar müəyyənləşdirilmiş, araşdırılaraq aradan qaldırılmışdır.

## Yeni xəritə və planlar tərtib edilmişdir

"Bələdiyyələrin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında" Əsasnaməyə uyğun olaraq Şərur rayonu üzrə 23 bələdiyyənin xəritələri yerquruluşu sənədlər qovluğu ilə birlikdə hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir. Şahbuz və Sədərək rayonlarının bütün bələdiyyələri üzrə sərhəd xəritələri və müvafiq yerquruluşu sənədlərinin hazırlanması başa çatdırılmışdır.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən sənaye və təhsil müəssisələrinin xəritələri tərtib olunmuş, muxtar respublikanın bütün şəhər və rayonları üzrə istirahət parkları və meydanların planları, suvarılan torpaq sahələrinin xəritələri hazırlanaraq toplu şəklində nəşr edilmiş, aid mərkəzi və yerli icra hakimiyyəti orqanlarına göndərilmişdir.

"İlandağ" geoparkının yaradılması məqsədi ilə aid mütəxəssislərlə əraziyə baxış keçirilmiş, müxtəlif məzmunlu 15 xəritə hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Ordubad rayonunda inşa olunan Tivi Su Elektrik Stansiyasının ərazisində geodeziya ölçmələri aparılmış, stansiyanın yüksək gərginlikli elektrik xətlərinin, Culfa rayonu ərazisində inşa olunan Külək-Günəş Hibrid Elektrik Stansiyasının əhatə etdiyi ərazinin planları hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Ümumilikdə, il ərzində 20 sifarişçi təşkilatın müraciəti əsasında 300-ə yaxın müxtəlif məzmunlu xəritə, plan və sxemlər hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.

## Torpaqlardan istifadəyə nəzarət gücləndirilmişdir

Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Babək rayonun yaşayış məntəqələrində aparılan monitorinqlər başa çatdırılmış, Şərur və Kəngərli rayonlarında monitorinqlərə başlanılmışdır.

İl ərzində Babək rayonunun 10, Şərur rayonunun 22, Kəngərli rayonunun 5 yaşayış məntəqəsində monitorinqlər aparılmış, torpaqdan qanunsuz istifadəyə dair aşkar edilmiş faktlar aradan qaldırılmışdır.

Muxtar respublikanın şəhər və rayonlarında daşınmaz əmlaka mülkiyyət hüququnun yaranmasının əsasları və bələdiyyə torpaqlarından təyinatı üzrə istifadə edilməsi ilə bağlı seminarlar keçirilmişdir.

Torpaq məsələləri ilə əlaqədar daxil olmuş 316 şifahi, 54 yazılı müraciət qanunvericiliyə uyğun araşdırılaraq cavablandırılmışdır.

**Ailə təsərrüfatlarına məxsus daşınmaz əmlak obyektləri inventarlaşdırılmışdır**

Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planına uyğun olaraq ailə təsərrüfatları ilə maarifləndirici görüşlərin keçirilməsi diqqətdə saxlanılmış, təsərrüfat subyektləri barədə məlumatlar toplanılmışdır.

İl ərzində 17 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, 114 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilmiş, təsərrüfat fəaliyyəti ilə əlaqədar 42 ailə təsərrüfatının icarəsinə verilmiş 8,9 ha torpaq sahəsi üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.

**Daşınmaz əmlakın qeydiyyatı yüksəlmişdir**

2020-ci ildə muxtar respublika üzrə 2991 torpaq sahəsi, 47 qeyri-yaşayış binası, 61 qeyri-yaşayış sahəsi, 1019 mənzil, 2087 fərdi yaşayış evi, 17 əmlak kompleksi kimi müəssisə, 1 çoxmənzilli yaşayış binası olmaqla, cəmi 6223 daşınmaz əmlak obyekti qeydiyyata alınmışdır. Əvvəlki illə müqayisədə dövlət qeydiyyatına alınan daşınmaz əmlak obyektlərinin sayı 1,8% artmışdır.

2020-ci il ərzində məhdudiyyət və yüklülüyə dair 5152, vətəndaşın adına daşınmaz əmlakın olub-olmamasına dair 1682 arayış verilmişdir. Fiziki və hüquqi şəxslərə məxsus 611 əmlak üzərində məhdudiyyət və yüklülüyün qeydiyyatı, 311 əmlaka dair yüklülükdən azad olunma, 13 əmlak üzərində hüquqların məhdudlaşdırılması və məhdudlaşdırılmanın ləğvi əməliyyatı icra edilmişdir.

**Hazırlanan texniki sənədlərin sayı artmışdır**

Daxil olmuş müraciətlər əsasında 1654 daşınmaz əmlakın texniki pasportu, 3285 torpaq sahəsinin planı və ölçüsü olmaqla, 4939 texniki sənəd hazırlanmışdır. Əvvəlki illə müqayisədə hazırlanan texniki sənədlərin sayı 5,7% artmışdır.

2020-ci il ərzində muxtar respublikanın rayonları üzrə də hazırlanan texniki sənədlərin sayında artım müşahidə edilmişdir. Belə ki, 2019-cu illə müqayisədə hesabat ilində hazırlanan texniki sənədlərin sayı Şərur rayonunda 6,6%, Babək rayonunda 25,9%, Ordubad rayonunda 8%, Şahbuz rayonunda 4% artmışdır.

5889 texniki sənədin parametrləri və həmin sənədlər haqqında digər məlumatlar Milli Qeydiyyat Sisteminə daxil edilmişdir. 1011 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır.

İl ərzində 1808 əmlakın bazar dəyəri məlumat bazasına daxil edilmiş, 299 əmlak real bazar dəyərinə uyğun olaraq qiymətləndirilmişdir. İlkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranmış 295 daşınmaz əmlak obyektinə ünvan verilmişdir.

**Səyyar və elektron xidmətlərin göstərilməsi diqqətdə saxlanılmışdır**

Hesabat dövründə Xidmətin fəaliyyət istiqamətləri üzrə göstərilən elektron xidmətlərdən 453 müraciət qəbul edilərək icra olunmuşdur.

Təsdiq olunmuş qrafik əsasında il ərzində muxtar respublikanın kənd yaşayış məntəqələrində vətəndaşlara səyyar xidmətlərin göstərilməsi davam etdirilmişdir. Şərur rayonunun 22 yaşayış məntəqəsində 262, Babək rayonunun 21 yaşayış məntəqəsində 65, Ordubad rayonunun 21 yaşayış məntəqəsində 82, Culfa rayonunun 11 yaşayış məntəqəsində 30, Şahbuz rayonunun 11 yaşayış məntəqəsində 34 müraciət qəbul olunmuş, mülkiyyət sənədləri hazırlanaraq yerlərdə vətəndaşlara təqdim edilmişdir. Ümumilikdə, 2020-ci il ərzində muxtar respublikanın 86 yaşayış məntəqəsində səyyar xidmət göstərilmiş, 473 müraciətə baxılmışdır.

**Mütəxəssis hazırlığına diqqət artırılmışdır**

Xidmətin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin "Torpaqşünaslıq və aqrokimya", "Geodeziya və xəritəçəkmə mühəndisliyi" ixtisaslarında təhsil alan tələbələrə dərs ili ərzində mühazirələrin oxunması davam etdirilmiş, innovativ ideyaların müzakirəsi aparılmış, görüşlər və onlayn təlim-məşğələlər və praktiki məşğələlər keçirilmişdir. Görüş və məşğələlərdə hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə innovativ ideyaların müzakirəsi aparılmış, startap komandalarının yaradılması, layihə təqdimatının düzgün hazırlanması ilə bağlı tövsiyələr verilmişdir. Yay tətili müddətində bir tələbə 3 aylıq əmək müqaviləsi bağlanılmaqla işlə təmin edilmişdir.

Naxçıvan Dövlət Universitetinin Coğrafiya ixtisasında təhsil alan tələbələrə Xidmətin bazasında praktiki məşğələlər keçirilmiş, Memarlıq, Geodeziya və xəritəçəkmə mühəndisliyi ixtisaslarında təhsil alan tələbələrin istehsalat təcrübəsi keçmələri təmin olunmuşdur.

**Media ilə əlaqələr gücləndirilmişdir**

Kütləvi informasiya vasitələrində görülən işlərin işıqlandırılması və maarifləndirmə aparılması diqqətdə saxlanılmışdır. İl ərzində "Şərq qapısı" qəzetində 31, "Nuhçıxan" İnformasiya Agentliyində 39, Azərbaycan Dövlət İnformasiya

Agentliyində 23, rayon (şəhər) qəzetlərində 57 yazı dərc edilmişdir. Naxçıvan Televiziyası vasitəsilə 26 xəbər süjeti, 4 veriliş verilmiş, Xidmətin internet saytına 96 yazı yerləşdirilmişdir. “Əmlak” informasiya bülleteninin 4-cü və 5-ci nömrələri nəşr olunmuşdur.

## Maddi-texniki baza möhkəmləndirilmişdir

Göstərilən dövlət qayğısı sayəsində Xidmətin informasiya infrastrukturunda təkmilləşdirmə işləri aparılmış, mövcud server, şəbəkə və təhlükəsizlik avadanlıqlarının kəsintisiz enerji ilə təmin olunması üçün yeni güc avadanlığı alınaraq quraşdırılmışdır. İnformasiya təhlükəsizliyinin təmin edilməsi üçün mərkəzləşdirilmiş antivirus sistemi qurulmuş, Xidmətin Aparatında və strukturuna daxil olan qurumlarda istifadə olunan kompüterlər mərkəzi antivirus sisteminə qoşulmuşdur.